# Dini radikalizmə və ekstremizmə yox deyək

Azərbaycan həm maddi, həm də mənəvi dəyərlərlə zəngin olan bir ölkədir. Vətənimizdə müxtəlif dillərdə danışan müxtəlif dinlərə etiqad edən müxtəlif millətlər yaşayır, dini konfensiyalar fəaliyyət göstərir. Bu fərqliliklərə baxmayaraq, onları birləşdirən əsas dəyər Azərbacançılıqdır. Ölkəmizin zəngin maddi-mənəvi nemətlərinə göz dikən bəzi radikal və ekstremist meyilli qruplar son dövrlərdə xalqımızın tolerant dəyərlərindən sui-istifadə edərək, cəmiyyət üçün təhlükəli və zərərli olan fikirləri insanlara aşılamağa çalışırlar .

Əsasən xaricdən idarə edilən və maliyyələşdirilən bu qüvvələr ölkəmizdə ictimai sabitliyi pozmağa cəhd göstərirlər. Milli kimliyimizin bir parçası olan mənəvi dəyərləri yad ünsürlərlə dolduraraq, millilikdən qoparmağa çalışan belə qrupların hədəf seçdikləri əsas kütlə - din haqqında doğru və ətraflı məlumatlara sahib olmayan gənclərdir.

Elə buna görə də gəncləri doğru-dürüst maarifləndirmək üçün Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində bu günlərdə "Dini radikalizmə və ekstremizmə yox deyək" mövzusunda tədbir keçirildi. Tədbirdə tədris mərkəzinin bütün mühəndis-pedaqoji heyəti və şagird kollektivi iştirak edirdi.

Mərkəzin gənclərin çağırışaqədərki hazırlıq rəhbəri İlham Əfəndiyev toplantı iştirakçılarına dini radikalizmin və ektremizmin təhlükəsinə dair məruzə etmişdir. Məruzəçi bildirmişdir ki, ölkəmizin gələcəyi olan gənclərin bəzilərinin ektremist qruplara cəlb olunması nəticəsində bir cox ailələr övladını itirməklə bərabər cəmiyyətin içtimaii qınaq obyektinə çevriliblər.

Tədris mərkəzinin direktoru Eyvaz Kazımov öz çıxışında radikal qruplaşmaların əsas məqsədi dövlətin gücünü öz məkrli çirkin planlarını həyata keçirməklə zəifl ətmək, milli mənəvi dəyərlərimizi, ənənələrimizi, tariximizi məhv etməkdən ibarət olduğunu qeyd etmişdir.

Mərkəzin tədris-istehsalat işləri üzrə direktor müavini Reyhan Məmmədova müəllim və şagirdlərə bildirdi ki, bu mövzuda gənclərin maarifləndirilməsi üçün tədbirlərin ilboyu təşkil olunması nəzərdə tutulmuşdur.

Tədbir diskussiya şəraitində keçirilmiş, şagirdləri maraqlandıran və düşündürən suallar müəllimlər tərəfindən cavablandırılmışdır.

✍ **Vüsalə QƏRİBOVA,**
**tədris mərkəzinin psixoloqu.**

# Tofiq İbrahim oğlu Hacıyev

Qəbələ səhiyyəsinə ağır itki üz verib.

Bacarıqlı həkim, tanınmış ziyalı, Qəbələ Rayon Mərkəzi Xəstəxanası baş həkiminin müavini Tofiq İbrahim oğlu Hacıyev 2016-cı il dekabrın 4-də ömrünün 62-ci ilində vəfat edib.



Tofiq Hacıyev 1955-ci il martın 18-də Bum qəsəbəsində ziyalı ailəsində anadan olub. Orta məktəbi bitirdikdən sonra 1973-cü ildə Nəriman Nərimanolv adına Azərbaycan Dövlət Tibb İnistitutunun müalicə-profilaktika fakültəsinə daxil olub.

1980-cı ildə institutu terapevt həkim ixtisası üzrə müvəffəqiyyətlə bitirən Tofiq Hacıyev Respublika Səhiyyə Nazirliyi tərəfindən işləmək üçün doğma Qəbələ rayonuna göndərilib.

Əmək fəaliyyətinə 1980-cı ildən etibarən rayon mərkəzi xəstəxanasında həkim-terapevt kimi başlayan Tofiq Hacıyev 1988-ci ildə irəli çəkilərək xəstəxananın terapiya şöbəsinin müdiri vəzifəsinə təyin edilib.

1996-cı ildən baş həkimin müalicə işləri üzrə müavini kimi əmək fəaliyyətini davam etdirən qayğıkeş həkim, mehriban insan, bacarıqlı təşkilatçı Tofiq Hacıyev ömrünün sonunadək bu vəzifədə çalışıb.

Onun ictimaiyyət arasında və işlədiyi kollektivdə qazandığı hörmət müqəddəs həkim peşəsinə bağlılığı və nümayiş etdirdiyi yüksək prinsipiallıqla səciyyələnir.

Tofiq Hacıyevin Qəbələ səhiyyəsində göstərdiyi xidmətlər rəhbərlik tərəfindən daim yüksək qiymətləndirilib.

Əsil həkim və tanınmış ziyalı Tofiq İbrahim oğlu Hacıyevin əziz xatirəsi onu tanıyanların qəlbində hər zaman yaşayacaq!

**İş yodaşlarından bir qrup.**

# Qəbələdə 60 hektar sahədə yeni meşəlik salınıb

Qəbələ rayonunda meşələrin mühafizəsi və bərpası daim diqqət mərkəzində saxlanılır.

Rayon meşələrin mühafizəsi və bərpası müəssisəsindən bildiriblər ki, rayonda payız mövsümündə yeni meşəliklərin salınması işləri başa çatdırılıb. Ötən iki ay ərzində rayonun Bum, Vəndam, Yenikənd və Zarağan meşəbəyiliklərinin ərazisindəki dövlət meşə fondunun torpaqlarında 30 hektar sahədə mədəni meşə salınıb. Bunun 10 hektarında palıd qozalarının səpini aparılıb, qalan 20 hektar əraziyə isə qoz, şabalıd, akasiya, vələs, göyrüş, ağcaqayın, palıd, fıstıq və digər qiymətli ağac növlərindən olan 22 min ting əkilib.

Bundan əlavə, Qəbələ Rayon Meşələrin Mühafizəsi və Bərpası Müəssisəsi baramaçılığın inkişafına dəstək məqsədilə tut bağlarının salınması işlərinə də öz töhfəsini verib. Müəssisə tərəfindən meşə fonduna aid torpaqlarda 2 hektar ərazidə 1600 ədəd tut tingi əkilib və yaz aylarında bu istiqamətdə işlər davam etdiriləcək.

Qeyd edək ki, bu ilin yazında rayonda 30 hektar ərazidə mədəni meşəlik salınmışdı. Cari ildə ümumilikdə 60 hektar sahədə 56 min ting əkilib. Rayon meşəçiləri ağac əkini üçün 3500 kiloqram palıd, qoz, şabalıd, göyrüş, ağcaqayın, akasiya toxumu tədarük ediblər. Rayon meşələrin mühafizəsi və bərpası müəssisəsinin kollektivi bu ilin payızında 2 hektar sahədə yeni tinglik salıb. Hazırda orada 120 min ədəd ting yetişdirilir. Gələn ilin yaz aylarında növbəti ağac əkini və toxum səpini mövsümünə başlanılacaq.

**«Qəbələ».**

# ELANLAR

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Qəbələ rayonunun Bunud kənd sakini **Şükürov Mürvət Murad oğluna** verilmiş MA seriyalı, 0287835 nömrəli (reyestr nömrəsi 406013009714) **Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 29 sentyabr 1997-ci il tarixli 18 nömrəli qərarı ilə Mamaylı kənd sakini **Məmmədyarov Mirzəfər Cəfər oğluna** verilmiş İN seriyalı 083 F nömrəli (kod 40604038) **Torpağın mülkiyyət hüququna dair Dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon DNK-nin 17 may 2006-cı il tarixli 40/2020 nömrəli alqı-satqı müqaviləsi ilə Savalan kənd sakini **Qasımov Şərif Tərlan oğluna** verilmiş JN seriyalı 180 nömrəli (kod 40609038) **Torpağın mülkiyyət hüququna dair Dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şuşa Rayon Bölməsi tərəfindənt 02 oktyabr 2010-cu il tarixdə Zarağan «Qacqın şəhərciyi»ndə yaşayan **Rüstəmov Gündüz Vəfadar oğluna** verilmiş AO seriyalı 121181 nömrəli **hərbi bilet** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 9 saylı Ərazi İdarəsi tərəfindən Bakı şəhər sakini **Məmmədov Arif Calal oğluna** 12 aprel 2012-ci il tarixində 406013010324 reyestr qeydiyyatı ilə verilmiş AA seriyalı 011944 nömrəli **Torpaq sahəsinin plan və ölçüsünə dair sənəd** itdiyi üçün etibarsız sayılır.




Əl işdən soyumaz, ürək arzudan...

QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti 1933-cü ildən nəşr olunur

# qəzetinə

## 2017-ci il üçün abunə yazılışı davam edir.

## İllik abunə qiyməti 30 manat, yarımillik 15 manatdır.

*Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyada nəqd ödəmə yolu ilə aparılır.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.


## ALLAH RƏHMƏT ELƏSİN

Ədalət Əliyev ailəsi ilə birlikdə rayon mərkəzi xəstəxanası baş həkiminin müavini, hörmətli ziyalı, bacarıqlı səhiyyə təşkilatçısı, istəkli dost

**TOFİQ HACIYEVİN**

vaxtsız vəfatı ilə bağlı əzizlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Qəbələ şəhər 4 №-li tam orta məktəbin kollektivi iş yoldaşları **Səmayə Hacıyevaya** qardaşı

**TOFİQ HƏKİMİN**

vaxtsız vəfatı ilə əlaqədar kədələndiklərini ilgildirir və dərin hüznlə başsağlığı verir.

---

Rayon mərkəzi xəstəxanasının kollektivi iş yoldaşları **Rəsul Hacıyevə** atası

**TOFİQ HACIYEVİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


*Redaktor*
*Varis Yaqubov*

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

*Növbətçi redaktor*
*Nadir Atakişiyev.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Tiraj 1800.
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.